# Azərbaycanda Ekoloji Turİzm Potensİalı

KOBİA
Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

ENEM-AY Audit & Tax

# Giriş

- Azərbaycan Respublikasının "Turizm haqqında" Qanununda ekoloji turizm haqqında belə tərif verilir:
    - Ekoloji turizm (ekoturizm) – təbiətə minimum təsir, ekoloji sistemin bütövlüyünün qorunması prinsipləri əsasında səyahət edilən ölkənin (yerin) təbiəti, təbii ekoloji sistemi, bioloji və mədəni müxtəlifliyi ilə tanışlığı özündə ehtiva edən turizm növüdür.
- Azərbaycanın gözəl təbiəti, fauna və flora növlərinin çoxluğu, tarixi, mədəniyyəti, dağlarından tutmuş düzənliyə qədər, mineral sularının olması ekoloji turizmin inkişaf etdirilməsinə böyük şərait yaradır. Ölkəmizin zəngin təbiəti ekoturizm üçün əlverişlidir. Ölkəmiz Strateji Yol Xəritəsində turizmin inkişafı ilə bağlı hədəflərində ekoturizmə xüsusi yer verib. Belə ki, 2025-ci ilə qədər ekoturizmin kifayət qədər tanınmış olacağı proqnozlaşdırılır

# Ekoturizm Beynəlxalq Sferada

- Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (UNEP) araşdırmasına görə, ekoturizm bu gün turizm sənayesinin ən sürətlə inkişaf edən seqmentlərindən biri hesab olunur. Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Turizm Təşkilatının uzunmüddətli proqnozlarına görə, ekoturizm həm turistlərin sayı, həm də ümumi turizmdəki payı baxımından sürətlə yüksəlməyə davam edəcək.

- Aparılan tədqiqatlara görə təcrübəli bir ekoturistin 50%-dən çoxu 8-14 gün müddət intervalında gəzintiyə üstünlük verir. Ekoturistlər ənənəvi turistlə müqayisədə 26%-lik hissəsi 1000-1500 ABŞ dolları xərcləməyə hazırdırlar. Braziliyada Amazon-da aparılan tədqiqata görə ziyarətçilərin 68%-i Avropalı, 14%-i Şimali Amerikalı, 9%-i Braziliyalı, 5%-i Asiyalı və Arikalılardır.

| Ekoturist göndərən ölkələr | |
|---|---|
| **ABŞ** | **Hollandiya** |
| İngiltərə | Danimarka |
| Almaniya | Norveç |
| Avstraliya | Avstriya |
| Fransa | Kanada |
| İsveç | Yeni Zenlandiya |

# Beynəlxalq Təcrübə

**Almaniyada** hazırda turist qəbul edən 23 min ferma olsa da (onlardan 1400-ü keyfiyyət sertifikatı alıb), turistləri qəbul edən fermer ailələrinin sayının sürətlə artmamasının əsas səbəbləri; Ailələr bu məsələyə hazır deyil, yeni investisiya ehtiyacları ortaya çıxır, turistlər daha yüksək yaşayış şəraiti və istifadə edə biləcəkləri ümumi sahələr axtarırlar. Almaniyada 184 min yataq tutumlu kənd turizmi yerləşdirmə potensialı fermer ailəsinə əlavə gəlir gətirir və ildə 100 gün gecələmə təmin edən təsərrüfatlar iqtisadi cəhətdən səmərəlidir.

**İtaliyada** ekoturizm 1980-ci illərdən sonra populyarlaşmağa başlayıb. Onların 60%-ni ailələr təşkil edir. Bu formada İtaliyada ekoloji turizm kənd turizmi səbəiylə "ailə ilə böyüklər turizmi" kimi izah edilirdi. 1986-cı ildə kənd təsərrüfatı turizmi 55000 yataq tutumuna malik idi və bu turizm növü ilə məşğul olan 6000 fermerdən 2000-i ikinci dərəcəli fəaliyyət kimi turizmlə məşğul olurdu. Bu gün istirahət üçün nəzərdə tutulan ferma tipli təsərrüfatların sayı 13500, çarpayıların sayı isə 150 mindir.

# Beynəlxalq Təcrübə

- ABŞ müxtəlif ekoturizm resursları, qabaqcıl ekoturizm xidmətləri və ekoloji maarifləndirmə baxımından dünyanın aparıcı ölkələrindən biridir. Milli parklar, Milli Park Xidməti, Xanterra Parkları və İstirahət Kəndləri ekoturizm çərçivəsində xidmət göstərir. Ən azı 300,000 turizmlə əlaqəli iş ABŞ-dakı milli parklara səfərlər vasitəsilə dəstəkləndi. Florida Keys Bölgəsində dalğıc ərazisi illik 1 milyard ABŞ dolları gəlir gətirir. İl ərzində buraya 1.6 milyondan çox dalğıc gəlir. Əsasən ekoturizmdən ibarət olan Karib adalarında turizm sənayesi 2022-ci ildə 60 milyard ABŞ dollarına çatmışdır. 2010-cu ildə İordaniya Vadi Rumdan başqa regionlarda ekoturizm fəaliyyətlərindən 2,1 milyon ABŞ dolları qazanıb.
- Avstraliya milli parkları geniş biomüxtəlifliyi və canlı təbiəti ilə əhəmiyyətli potensiala malikdir. 345.950 $km^2$ ərazini əhatə edən YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil olan Böyük Sədd Rifi Dəniz Parkını hər il 1,6 milyon turist ziyarət edir və təkcə bu turistlərdən 1 Milyar Avstraliya Dolları gəlir əldə edilir. Ekoturizm sektor olara Avstraliyada 14000-dən çox birbaşa iş yaradır. Ümumilikdə ekoturizmdən əldə olunan gəlir isə 1.6 Milyard ABŞ dollarıdır.
- Türkiyədə Mədəniyyət və Turizm Nazirliyinin rəhbərliyi ilə turizm məhsullarının şaxələndirilməsi, kütləvi turizmin sahilyanı ərazilərə yaratdığı təzyiqlərin azaldılması, turizmin sosial-iqtisadi faydalarının ölkənin inkişaf etməmiş bölgələrinə yayılması istiqamətində müxtəlif layihələr hazırlanıb. Buraya Plato, Maarifləndirmə, Trekkinq, Atla təbiət gəzintisi, Yaşıl Qlob, Mavi Bayraq və s. kimi layihələr həyata keçirilmişdir.

# Beynəlxalq iqtisadi alətlər

Ekoturizm sahəsində iqtisadi fəaliyyətin genişləndirilməsi üçün beynəlxalq təcrübədə müxtəlif iqtisadi alətlərdən istifadə olunur. Bu alətlər ekoturizmin davamlılığını artırmaq və yerli iqtisadiyyatlara töhfə vermək üçün hazırlanmışdır. Aşağıda ekoturizmdə istifadə olunan əsas iqtisadi alətlər ətraflı təsvir edilmişdir:

- Vergi güzəştləri və endirimlər
- Qrant və subsidiyalar
- Dövlət-Özəl ortaqlığı (PPP)
- Davamlı Sertifikatlaşdırma proqramları
- Mikromaliyyə və mikrokredit proqramları

# TƏDQİQAT HAQQINDA

- Bu tədqiqat, Azərbaycanın müxtəlif regionlarında yerləşən milli parklar, qoruqlar və kənd ərazilərini əhatə edəcəkdir. Tədqiqatın əhatə dairəsinə dövlət tərəfindən qorunan qoruqlar daxildir. Bundan əlavə, kənd turizmi potensialı olan bölgələrdə yerli əhalinin ekoturizm fəaliyyətlərinə inteqrasiyası və bu fəaliyyətlərin iqtisadi və sosial təsirləri də təhlil olunacaqdır.
- Tədqiqat həmçinin ekoturizm sektorunda mövcud infrastrukturun vəziyyətini, turistlərin məmnuniyyətini və ekoturizmin inkişafı üçün mövcud olan maneələri də araşdıracaqdır. Nəticədə, Azərbaycanın ekoturizm potensialının artırılması üçün strateji tövsiyələr irəli sürüləcəkdir.

- Tədqiqatda həm kəmiyyət, həm keyfiyyət metodundan istifadə olunmuşdur. Keyfiyyət təhlili üçün kontent analizi üsulundan istifadə olunmuşdur. Eyni zamanda cavablar əsasında keyfiyyət təhlili aparılacaqdır. Məlumat toplanması 3 fərqli istiqamətdə baş vermişdir:
    - Sahibkarlardan
    - Ekoturizm sektoru sahibkarları
    - Vətəndaşlar
- Analizlər əsasən SPSS 26.0 və Microsoft Excel proqramından istifadə olunaraq aparılmışdır. Sorğuların məqsədi vətəndaşın, şirkətlərin və sahibkarların ekoturizm haqqında məlumatlılığını təhlil etməkdir.
- Sıxlıq, Chi-Square, Crosstab analizləri tətbiq olunmuşdur. Bu analizlər çərçivəsində məlumatlar hesabat halına gətirilmiş və təkliflər üçün zəmin formalaşdırılmışdır.

# Ölkəmizdə yayılan ənənəvi turizm növləri

| | |
|---|---|
| Mədəni turizm | Tarixi<br>Mədəni<br>Etnoturizm |
| Təbiət turizmi | Kənd Turizmi<br>Aqroturizm<br>Yay-Qış Turizmi<br>Rekreasiya |
| Macəra turizmi | Mağara gəzintiləri<br>Yürüyüş<br>Dağçılıq<br>Dəniz |
| Əyləncə turizmi | Əyləncə məkanları<br>Festival və tədbir<br>Atraksiyonlar<br>Qastronomiya<br>Çimərlik |
| Sağlamlıq turizmi | |

# Regionlarda ənənəvi turizm

| Region | Yayılmış ənənəvi turizm növü |
|---|---|
| Bakı Turizm Zonası | Mədəni, Əyləncə, Dəniz, Təbiət |
| Naxçıvan Turizm zonası | Dağçılıq, Mədəni, Qış turizmi, kənd turizmi, ekoturizm |
| Qarabağ və Şərqi Zəngəzur zonası | Mədəni, Kənd, Ekoturizm, Dağçılıq, Qış |
| Şimal-Qərb Marşrutu | Mədəni turizm, Ekoturizm, Təbiət turizmi (Aqroturizm və Kənd Turizmi), Qastronomiya turizmi, Macəra turizmi, Sağlamlıq turizmi |
| Şimal Marşrutu | Təbiət turizmi (Kənd turizmi, yay/qış turizmi, aqroturizm), Qastronomiya turizmi, Tarixi-memarlıq turizmi, Macəra turizmi, Sağlamlıq turizmi, Ekoturizm |
| Cənub Marşrutu | Mədəni Turizm (Tarixi, Etnik və mədəni), Təbiət turizmi (Kənd turizmi və Rekreasiya), Sağlamlıq turizmi, Macəra turizmi, Qastronomiya, Ekoturizm, Çimərlik Turizmi |
| Qərb Marşrutu | Mədəni turizm, Təbiət turizmi, Sağlamlıq turizmi, Ekoturizm |

# Regionların tanınan istirahət yerləri

## Bakı

- Qobustan petroqlifləri
- Atəşgah
- Şirvanşahlar Sarayı
- Qız Qalası və.s.

## Naxçıvan

- Mömünə Xatun Türbəsu
- Gəmiqaya rəsmləri
- Əshab-i Kəhf
- Əlincə və Bəzz qalaları
- Hüseyn Cavid məqbərəsi

## Qarabağ və Şərqi Zəngəzur

- Xarıbülbül festivalı
- Azıx Mağarası
- İstisu
- Vaqif məqbərəsi

## Şimal-Qərb

- Yeddi Gümbəz
- Sakitgöl
- İlisu Dövlət Qoruğu
- Kiş məbədi
- Şəki Xan Sarayı Kompleksi

## Cənub

- Qızılağac Körfəzi
- Şirvan Qoruğu
- Hirkan Milli Parkı
- Diyarşünaslıq muzeyi

## Qərb

- Eldar Şamı meşəsi
- Lüteran Kilsəsi
- Mineral sular (Turşsu, Mormor və s.)
- Candargöl




# Regionların tanınan istirahət yerləri

# Potensialı yüksək olan, lakin az turist cəlb edən ərazilər

Ölkəmizdə 10 milli park, 10 dövlət qoruğu fəaliyyət göstərir. Bunlarla yanaşı 24 yasaqlıq var.

Lakin Göygöl Milli Parkı və Dövlət Qoruğu çıxılmaqla digər ərazilərdə daxili və xarici turist sayının ümumi turist sayı içindəki payının çox altındadır.

Ümumiyyətlə ölkə ərazisində bu istiqamətdə ciddi turist azlığı var.

Potensialın tam istifadəsi üçün hər istiqamət və ekoloji vahid üçün ayrı-ayrılıqda iş yürüdülməlidir.




- İştirak edənlərin 90%-dən çoxu orta və üstə səviyyəsində münasibət göstərərək, ekoloji normalar riayət etməklə istirahətə müsbət reaksiya göstəriblər.
- Lakin bu məsələdə insanların sorğu ilə bağlı anlama və mənimsəmə, eyni zamanda digər suallarda ekoturizmi doğru qəbul etmə nöqteyi-nəzərindən sapmalar olması mümkündür.

# Ətraf mühitin mühafizəsi, biomüxtəlifliyin qorunması qaydalarına, tələblərinə və digər ekoloji normalara riayət edərək təbii ərazilərdə istirahətə münasibət səviyyəs

# Təbiətdə istirahət qiymətinin ənənəvi istirahətlə müqayisəsi – beynəlxalq təcrübə və yerli təcrübə

| | Yerli | Beynəlxalq |
|---|---|---|
| Ekoturizm | 400-700 | 450-800 (AZN) |
| Ənənəvi | 500-100 AZN | 600-1200 AZN |

# Təbiətdə istirahət qiymətinin ənənəvi istirahətlə müqayisəsi –beynəlxalq təcrübə və yerli təcrübə

Xaric ilə yerli arasında çox böyük fərqlər olmasa da təyyarə, nəqliyyat məsrəflərinin çoxluğu yerli turizmin rəqabətqabiliyyətinə müsbət təsir edir.

Lakin lokal bazarda ənənəvi ilə ekoturizm arasında qiymət fərqininələ də əsaslı dərəcədə çox olmaması komfort zonanı sevənlər üçün daha da işi çətinləsdirir.

# Turistlər yerli turizm mərkəzləri haqda nə düşünür?

- Ən böyük problem xidmət səviyyəsindədir. Bizdə nəinki daha tələbkar xarici turisti, heç o qədər də tələbkar olmayan yerli turistləri belə qane edəcək normal xidmət səviyyəsi yoxdur. Əgər bir araşdırma aparsalar görərlər ki, ölkəyə gələn xarici turistlərin heç biri 2-ci dəfə bura gəlmir.
- Məncə ən çox zərər vuran qiymətlərin bütün dünyadan baha olmasıdır. Bir neçə il əvvəl Gürcüstanda, Batumidə istirahət etdim, günü 25 manata 3 ulduzlu oteldə, normal istirahət mərkəzində dincəldik. Hər gün 2-3 saatlıq ekskursiyalar təşkil olunurdu. Turist bu qiymətə belə imkanı buraxıb bizim bahalı turizm mərkəzlərinə niyə gəlsin ki?
- Bizdə turizm oteldə yatmaq yerini və yeməkləri çox baha qiymətə satmaq kimi başa düşülür. Ən yaxşı halda iri bir hovuz düzəldirlər. Belə mərkəzlərdə tünlük olur və istirahət etmək mümkün deyil. Səs-küydən qulaq tutulur. Bizim turizm mərkəzlərinin çoxunda gəziləsi, görüləsi yerlər yoxdur. Ağac, hovuz, gül-çiçək, heyvan heykəlləri elə hər yerdə var.
- Turizm sahəsi üzrə mütəxəssis kimi deyə bilərəm ki, bizdə hələ ki müvafiq infrastruktur və xidmət bərbad vəziyyətdədir. Turizm deyəndə turizm obyektləri sahiblərinin ağlına ancaq kabab satmaq və otağı baha qiymətə müştəriyə sırımaq gəlir. Əslində, turizm tam fərqli bir şeydir. Floristləri, faunaçıları, arxeoloqları, etnoqrafları ölkəyə cəlb etmək lazımdır. Eyni zamanda, coğrafi, tarixi, etnoqrafik, nəbatat və müalicəvi turizmi də inkişaf etdirib, ölkəyə kulli miqdarda pul qazandırmaq olar.

# Xaricə üz tutan yerli əhali




| İllər | Xarici Turist Sayı | Artım |
|---|---|---|
| 2021 | 974446 | 100% |
| 2022 | 1488882 | 152,8% |
| 2023 | 1868742 | 125,5% |

# Regionlarda İstirahətini keçirən yerli əhali

| İllər | Daxili Turist Sayı | Artım Nisbəti |
|---|---|---|
| 2021 | 13703367 | 100% |
| 2022 | 17802764 | 130% |
| 2023 | 21687062 | 122% |



# Daxili turizmin iqtisadi rayonlar üzrə bölgüsü



# Sorğu 1

- Sorğunun məqsədi sahibkarların ekoturizm haqqında məlumatlılıq səviyyəsini ölçməkdir. Bunun üçün 107 sahibkar sorğuda iştirak edərək öz fikirlərini bildirmişlərdir. Sorğu anonim baş tutmuşdur. Sorğuda iştirak edənlərin 61 nəfəri kişi, 46 nəfəri isə qadındır.












# *Sorğuda iştirak edən sahibkarların səviyyələr üzrə bilik dərəcəsi*

- Sorğuda iştirak edənlərin bilik səviyyəsinin qrafik təsviri göstərilməkdədir. Ekoturizm sahəsi ilə bağlı bu trend əslində insanların sahədə bilik səviyyəsinin məhdud olduğunu göstərməkdədir.

# Sorğu 2

- Sorğuda iştirak edənlərin yaş üzrə bölgüsünə diqqətlə baxsaq, 18-45 yaş aralığında insanların sorğuda üstünlük təşkil etdiyini görmək mümkündür. 36-45 yaş aralığında sahibkarlar daha çox iştirak edirlər.
- Sorğunun məqsədi sahibkarların ekoturizm haqqında məlumatlılıq səviyyəsini ölçməkdir. Bunun üçün 107 sahibkar sorğuda iştirak edərək öz fikirlərini bildirmişlərdir. Sorğu anonim baş tutmuşdur. Sorğuda iştirak edənlərin 61 nəfəri kişi, 46 nəfəri isə qadındır.






# Sorğu 2

- Sorğuda iştirak edən firmaların 34.3% hissəsi qida sektorundan, 29.5% hissəsi istirahət mərkəzlərindən, Tur Operatoru və agentliklərin birgə cəmi isə 31.5% təşkil etmişdir. Bütöv sektoru ehtiva etmə baxımından seçilən nümunə yetərlidir.



# Sahibkarlarda Ekoturizm Düşüncəsi

| Kriteriyalar | Sahibkarların bilik səviyyəsi |
|---|---|
| Prosesdə iştirak edən vətəndaşların məlumatlılıq səviyyəsi | Aşağıdır |
| Vətəndaşların prosesə müsbət və konstruktiv dəstəyi] | Aşağıdır |
| Qanunvericiliyin yaratdığı maneələrin işə təsir | Ortadır |
| Turistlərə çatmaq və diqqətlərini cəlb etmək şansımız | Aşağıdır |

# Sorğu 2: Sizcə Ekoturizm nədir?

- Sizcə Ekoturizm nədir?- deyə soruşduqda isə istifadəçilərdən gələn cavablar əsasən aşağıdakı başlıqlarda yer almaqdadır:
  - Təbiətlə əlaqəlidir
  - Ətraf mühitlə əlaqəlidir
  - Bilmirəm
  - Sağlam istirahət
  - Təbiəti qorumaq
  - Turizmin mənfi təsirinin qarşısı alınması
  - Təbii ərazilərdə keçirilən turizmdir.







# Sorğu 3

- Sorğuda 106 vətəndaş iştirak edib, onlar turizm sektorunun müxtəlif istiqamətlərində fəaliyyət göstərirlər. Xidmətlərində ekoturizm də daxildir. İştirak edənlərdən 55 nəfər (51.9%) bəylər, 51 nəfər (48.9)% isə xanımlardır. Yaşa görə bölgüdə isə 26-35 yaş və 36-45 yaş arasında olan şəxslər çoxluq təşkil edir.

# Sorğu 3

- Vətəndaşlar Ekoturizm dedikdə aşağıdakıları anlayır:
  - Təbiətdən səmərəli istifadə
  - Təbiət turizmi
  - Ekologiya turizmi
  - Ruh Yüksəkliyi
  - Kənd turizmi
  - Təbii turizmi
  - Karbon ayaq izini azaldaraq edilən turistik fəaliyyət

- Əslində vətəndaşların turizm haqqında fikirləri və münasibətləri yaxşı olsa da əsasən iştiraklarına maneə olaraq aşağıdakı faktorları bildirmişdirlər:
  - Məlumat azlığı
  - vaxt azlığı
  - Qiymətlərin baha olması
  - Təhlükəsizlik məsələləri
  - Nəqliyyat
- İnsanlar ekoturizmi aşağıdakı formada qiymətləndirirlər:
  - Stresi azaltmaq üçün fəaliyyət
  - Təbiətlə təmasda olmaq
  - Fiziki fəaliyyət
  - Yeni insanlarla tanışlıq

# Region əhalisinin iştirak etmək istəklərinin səviyyəsi

Ümumi olaraq əldə olunan nəticəyə əsasən region əhalisi ekoturizm prosesində iştirak etməkdə maraqlıdırlar.

Sadəcə məlumat azlığı və anlayışın tam qavranılmasında məhdud bir çərçivə mövcuddur.

Buna baxmayaraq ekoturizmin müsbət təsirlər yaradacağına inanırlar və prosesdə iştirak üçün istəklidirlər.

# Sahibkarların üzləşdikləri çətinliklər

| | | | |
|---|---|---|---|
| Prosesə qoşulan vətəndaşların | Məlumatlılıq səviyyəsi | Resursların azlığı | Hədəf auditoriyaya çıxmaqda çətinlik |
| Ekoturizmlə bağlı qanunverici bazanın yetərsiz olması | Müvafiq ərazidəki infrastrukturun işə təsiri | Dövlət dəstəyinin kifayət qədər olmaması | Təbiətin çirklənməsi Nəqliyyatla bağlı problemlər |

**Bundan başqa firmalar maliyyə davamlılığı ilə bağlı çətinlik çəkirlər. Bu istiqamətdə demək olar əksər firma problemlə üzləşir.**

# Nəticələr

- Azərbaycanın ekoturizm potensialı genişdir və ölkənin müxtəlif təbii və mədəni sərvətləri bu potensialın inkişafı üçün əlverişli şərait yaradır. Araşdırmanın nəticələrinə əsasən, Azərbaycanın ekoturizm potensialı aşağıdakı əsas faktorlarla müəyyən edilir:
  1. **T**əbii Resurslar və Biomüxtəliflik: Azərbaycan zəngin təbii resurslara və biomüxtəlifliyə malikdir. Bölgənin fərqli ekosistemləri, dağlıq əraziləri, meşələr, çaylar və göllər turistlərin marağını cəlb edir. Xüsusilə Şahdağ Milli Parkı, Göygöl Milli Parkı və Hirkan Milli Parkı kimi qorunan ərazilər ekoturizm üçün unikal məkanlardır.
  2. Mədəni İrs və Adət-ənənələr: Azərbaycanın zəngin mədəni irsi, tarixi abidələri və müxtəlif adət-ənənələri ekoturizm üçün əlavə cazibə mənbəyidir. Qədim şəhərlər, xalçaçılıq və misgərlik kimi yerli sənətlər, həmçinin milli mətbəx turistlərə unudulmaz təcrübə təqdim edir.
  3. Ekoturizm İnfrastrukturunun İnkişafı: Son illərdə ölkədə ekoturizm infrastrukturunun inkişafına yönələn addımlar atılmışdır. Yeni yollar, turizm marşrutları, ekoloji otellər və kənd turizmi obyektləri turistlərin rahatlığını təmin edir. Bununla yanaşı, yerli əhali arasında ekoturizmin faydaları haqqında məlumatlılığın artırılması da mühüm əhəmiyyət kəsb edir.
  4. Qlobal Ekoturizm Trendinə Uyğunlaşma: Dünya miqyasında ekoturizmin artan populyarlığı və ekoloji məsuliyyətlilik Azərbaycanda ekoturizmin inkişafına təkan verir. Turistlərin təbiətə zərər vermədən təbiətlə harmoniyada istirahət etmək istəyi, Azərbaycana gələn ekoturistlərin sayının artmasına səbəb olur.
  5. İqtisadi Faydalar və Regional İnkişaf: Ekoturizm yerli iqtisadiyyatın inkişafına və regional balansın qorunmasına kömək edir. Turizmin bu növü, xüsusən kənd yerlərində iş imkanları yaradır və yerli məhsulların satışına dəstək verir. Bu da əhalinin sosial rifahının yüksəlməsinə töhfə verir.
- Araşdırmanın nəticələri göstərir ki, Azərbaycanın ekoturizm potensialının tam reallaşdırılması üçün koordinasiyalı və davamlı inkişaf strategiyalarının həyata keçirilməsi vacibdir.
  - Dövlət, özəl sektor və vətəndaş cəmiyyəti arasında əməkdaşlıq, ekoloji maarifləndirmə proqramlarının genişləndirilməsi və beynəlxalq təcrübənin öyrənilməsi bu sahədə mühüm rol oynaya bilər. Bununla yanaşı, ekoturizmin davamlı inkişafını təmin etmək üçün ətraf mühitin qorunması və resursların səmərəli istifadəsi əsas prioritet olmalıdır.
  - Bu nəticələr Azərbaycanın ekoturizm potensialını reallaşdırmaq üçün həm yerli, həm də beynəlxalq səviyyədə müvafiq tədbirlərin görülməsinin zəruriliyini vurğulayır.

# Təkliflər

TƏKLİFLƏR hissəsinə başlamazdan əvvəl qeyd edim ki, bu sahədə dövlət qurumları arasında koordinasiyalı fəaliyyət mütləqdir. Çünki Ekoturizm sırf bir quruma həvalə edilib idarə edilməsi mürəkkəb təşkilatlanma formasıdır. Burda həm yerli idarəetmə orqanları, həm də mərkəzi təşkilatların birgə fəaliyyətinə ehtiyac var.

Təkliflər isə belədir:

- Dövlətin bu sahədə mütəşəkkil dəstəyi və Turizm İdarəçi təşkilatların mütəşəkkil formada prosesi idarə etmələri.
- Təhsil və maarifləndirmə: Bu sahədə mütləq fəaliyyət lazımdır. Çünki hətta sahibkarlar da demək olar ki, vətəndaşlardan daha az məlumatlıdırlar.
- Kommunikasiya və Marketinq- Bütün regionların, abidələrin, ekoturizm istiqamətində fəaliyyətlərin cəmiyyətdə kommunikasiyası lazımdır. Regionlarda brendinq işləri yüksək səviyyədə görülməlidir.
- Cəmiyyətlər formalaşdırılması: Kempinq, trekkinq üçün klublar, cəmiyyətlər yaradılmalı, icmalar formalaşdırılmalıdır.
- Bir çox turizm marşrutu üzrə statistika olduqca aşağıdır və əsasən Bakı və Bakı ətrafında cəmlənmə var, bu azaldılmalıdır.
- Texnologiyanın və innovasiyanın prosesə inteqrasiyası daha da sürətləndirilməlidir. Augmented Reality, 3D səyahət, VR kimi fəaliyyətlər daha da artırılmalıdır.
- Beynəlxalq əməkdaşlıq: Beynəlxalq təşkilatlarla əməkdaşlıqlar edib, beynəlxalq tədbirləri müvafiq regionlarda həyata keçirməklə nəticə almaq olar.
- İctimai Birlikləri və QHT-ləri bu istiqamətdə cəlb etmək, influnserləri, dövlət təşkilatlarını məsələnin tərəfdaşı etmək əslində faydalı nəticələr almaq üçün uğurlu ilk addım ola bilər.

# Sahibkarlar üçün tövsiyələr

- Azərbaycanda ekoturizm sahəsində biznes qurmaq istəyən sahibkarlar üçün tövsiyələr aşağıdakı kimi ola bilər:
  - Azərbaycanın turizm sektorunda artım müşahidə olunmaqdadır və ekoturizm bu sahədə yeni və cəlbedici bir sahə kimi çıxış edir. Ölkənin müxtəlif regionlarında təbii gözəlliklər və unikal ekosistemlər mövcuddur ki, bu da ekoturizm üçün böyük potensial yaradır.
  - Dünyada davamlılıq və ətraf mühitin qorunmasına olan maraq artmaqdadır. Bu, ekoturizmə olan tələbin artmasına səbəb olur. Ölkəmizdə təşkil olunacaq COP29 tədbiri və 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" olaraq adlandırılması da bizim üçün stimuldur.
  - Ekoturizm layihələri uzunmüddətli gəlir mənbəyi ola bilər, çünki təbiəti qoruma və mədəni irsi tanıtma mövzusunda davamlı maraq və tələbat var.
  - Yerli mədəniyyət və adət-ənənələrin turistlərə təqdim edilməsi, unikal və zəngin təcrübələr yaratmaq üçün əhəmiyyətlidir.
  - Ekoturizm vasitəsilə turistlərə ekoloji şüur aşılayaraq ətraf mühitin qorunmasına töhfə verə bilərsiniz.
  - Günəş enerjisi, yağış suyu yığımı və tullantıların təkrar emalı kimi ekoloji texnologiyalardan istifadə edilməsi inteqrasiyaolunmuş mühit və mesaj yaratmaq üçün əsas ola bilər.
  - Prinsip etibarilə, Ekoturizmi təbiətlə vəhdət təşkil edəcək formada istənilən yerdə təşkil etmək olar. Bunun üçün relyefin dağ yaxud aran olması da maneə törətmir.
  - İnsanların şəhərin səs-küyündən uzaqlaşmaq üçün müraciətləri, ölkədə formalaşan kamp və raftinq mədəniyyəti, uçan hava balonları ifrastrukturu ekoturizmi daha cəlbedici edir.
  - Abşeronda olan palçıq vulkanından tutmuş, Naxçıvandakı temperatur amplitudasına qədər, Lənkərandakı iqlimdən, Şimaldakı iqlimə qədər Azərbaycanda böyük imkanlar var.
  - Sadəcə vahid başlıq altında və brendləşmiş formada sırf ekoturizmə fokuslanaraq möhtəşəm nəticələr əldə etmək olar.
  - Ekoturizmin qanunvericilik bazasının olmaması, ölkəmizdə sərhədlərinin təyin olunmaması risk yaratsa da, hazırkı konyekturada bu sahədə investisiya cəlbi və biznes quruculuğu üçün fürsətdir. Qalan bütün qanunlar və lisenziyalar hamısı ümumi turizm çərçivəsindədir.